**Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ PLENUMUNUN**

**Q Ə R A R I**

**1 noyabr 2001-ci il** **№ 1/2001** **Bakı şəhəri**

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkənin ərazi bütövlüyünü və suverenliyini qorumalı olan Silahlı Qüvvələrimiz yaradılmışdır. Eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq qısa müddət ərzində müdafiə, hərbi quruculuq, Silahlı Qüvvələrin komplektləşdirilməsi məsələlərini nizama salan qanunlar qəbul olunmuş, hərbi xidmətin əsasları, gənclərin hərbi xidmətə hazırlığı, hərbi xidmətə çağırışın və qəbulun, hərbi vəzifəlilərin və çağırışçıların hərbi uçotu, hərbi xidmətin keçilməsi, Silahlı Qüvvələrin döyüş və səfərbərlik hazırlığının saxlanması qaydaları müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası Vətənin müdafiəsini onun hər bir vətəndaşının borcu, qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməyi vətəndaşların əsas vəzifələrindən biri kimi müəyyənləşdirmişdir.

Lakin məhkəmə təcrübəsi göstərir ki, vətəndaşların həmin Konstitusiya ilə təsbit edilmiş vəzifələrini yerinə yetirməkdən imtina edərək həqiqi hərbi qulluqdan boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik etmələri halları heç də az deyildir. Məhkəmələr bu kateqoriyalardan olan işlərə baxarkən işin hallarının tam və hərtərəfli araşdırılmasına, cinayət qanunu normalarının düzgün tətbiq edilməsinə, belə cinayət törətmiş şəxslərə qanunun tələbinə uyğun, obyektiv cəza təyin edilməsinə əsasən nail olurlar.

Bununla yanaşı, bu kateqoriyadan olan işlərə baxılmasında qanun pozuntularına yol verilməsi halları da mövcuddur. Növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma cinayətləri ilə hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətlərinin subyektlərinin müəyyən edilməsində fikir ayrılıqları vardır. Fərarilik və hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətlərinin tövsifində də səhvlərə yol verilir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – CM) hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik cinayətlərindən bəhs edən 333 və 334-cü maddələrində ağırlaşdırıcı hal kimi nəzərdə tutulan bu əməllərin döyüş şəraitində edilməsi halı hamı tərəfindən eyni mənada anlaşılmır.

Bu kateqoriyadan olan işlərin ibtidai araşdırılması zamanı ciddi nöqsanlara yol verilməsinə baxmayaraq, məhkəmənin hazırlıq iclaslarında həmin qanun pozuntularının aradan qaldırılması sahəsində Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 300.1.5 və 303-cü maddələrinin məhkəməyə verdiyi hüquqlardan səmərəli istifadə edilmir.

Cəza təyini zamanı cəzanın fərdiləşdirilməsi prinsipindən kənara çıxma halları mövcuddur. Hökmlərdə cinayətin xarakteri, ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyətini göstərən məhz hansı halların cəza təyin edərkən nəzərə alındığı

göstərilmədiyindən yuxarı instansiya məhkəmələri tərəfindən xeyli miqdarda məhkəmə hökm və qərarlarının dəyişdirilməsi və ya ləğv edilməsi halları mövcuddur.

Cinayətlərin törədilməsinə zəmin yaratmış səbəb və şəraitin kifayət qədər ətraflı araşdırılmasına və xüsusi qərar çıxarmaq yolu ilə səlahiyyətli orqanların və vəzifəli şəxslərin diqqətinin belə hallara cəlb edilməsinə az diqqət yetirilir.

Qeyd edilən nöqsanlara apellyasiya və kassasiya instansiyası məhkəmələrinin fəaliyyətində də yol verilir.

Belə nöqsanların aradan qaldırılması, qanunların düzgün qavranması və birmənalı tətbiqini təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

**QƏRARA ALIR:**

**1.** Məhkəmələrin diqqəti qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq məqsədilə növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma, hərbi hissəni *(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini)* və ya xidmət yerini özbaşına tərk etmə, eləcə də fərarilik haqqında işlərə baxılma keyfiyyətinin yaxşılaşdırılmasına cəlb edilsin. [1]

Bu vəzifələrin tam yerinə yetirilməsinə nail olmaq məqsədilə məhkəmələr ibtidai araşdırmanın keyfiyyətinə tələbkarlığı gücləndirməli, cinayət və cinayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi riayət edilməklə işin faktiki hallarının müəyyən olunmasını təmin etməli, məhkəmə proseslərinin tərbiyəvi təsirini artırmalıdırlar.

**2.** *“Hərbi vəzifə və hərbi xidmət haqqında” 2011-ci il 23 dekabr tarixli 274-IVQ nömrəli Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsinə əsasən vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında müvafiq icra hakimiyyəti orqanının aktı qüvvəyə mindikdən sonra müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən çağırışçılar çağırış vərəqəsində göstərilənlər nəzərə alınmaqla yaşayış yeri və ya olduğu yer üzrə hərbi qeydiyyatda olduğu, hərbi qeydiyyatda olmayan çağırışçılar isə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına gəlməlidirlər.*

*“Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunun 2.0.15 və 6.2-2-ci maddələrinə əsasən vətəndaşın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), yəni Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri tərəfindən hərbi vəzifələri, o cümlədən tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə, toplanışlara çağırılması barədə rəsmən məlumatlandırılmasını nəzərdə tutan rəsmi sənəd çağırış vərəqəsidir və çağırış vərəqəsi elektron formada vətəndaşın elektron kabinetinə yerləşdirildikdə və bu barədə SMS məlumat ona çatdırıldıqda, bu mümkün olmadıqda isə digər vasitələr, yəni poçt rabitəsi ilə, elektron poçtla və ya şəxsən, məsələn, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinin əməkdaşları və ya həmin orqanın müraciətinə əsasən vətəndaşın təhsil aldığı və ya işlədiyi qurumun müdiriyyəti, mənzil-istismar təşkilatlarının və yaşayış sahələrinə xidmət edən digər idarəedici təşkilatların səlahiyyətli şəxsləri tərəfindən təqdim olunduqda, həmin andan etibarən çağırışçı məlumatlandırılmış hesab olunur.*

*“Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” 2005-ci il 10 iyun tarixli 923-IIQ nömrəli Azərbaycan Respublikasının Qanununa və bu Qanunla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş “Müharibə dövrünün ştatlarında nəzərdə tutulmuş hərbi vəzifələrdə hərbi xidmətkeçmə məqsədilə hərbi hissələrə təhkim olunmuş (xüsusi birləşmələrə təyin edilmiş) vətəndaşların səfərbərlik üzrə hərbi xidmətə çağırılması qaydası, habelə Azərbaycan Ordusunun, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun*

*olaraq yaradılmış başqa silahlı birləşmələrin və xüsusi birləşmələrin mülki heyət vəzifələrində vətəndaşların işləmək üçün göndərilməsi" Qaydasının 3.3-cü bəndinə əsasən mediada səfərbərliyin elan olunmasından əlavə, vətəndaşlar səfərbərlik üzrə hərbi xidmətə çağırılmaları barədə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmə rəislərinin səfərbərliyin elan olunması haqqında əmrinin ictimai yerlərdə yapışdırılması, çağırış vərəqələri ilə yaşayış yerləri və iş yerləri üzrə xəbərdar edilirlər. Həmin "Qayda"nın 3.4-cü bəndi ilə vətəndaşların səfərbərlik barədə xəbərdar edilməsinə yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, təşkilatların vəzifəli şəxslərinin, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinin aparatlarına təhkim edilmiş şəxslərin də cəlb edilməsinə, yəni çağırış vərəqəsi bu şəxslər vasitəsilə də hərbi vəzifəlilərə çatdırılmaqla onların səfərbərlik üzrə çağırılmaları barədə məlumatlandırılmasına yol verilir.*

*Hər bir halda vətəndaşın CM-in 321-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsi üçün ona qeyd olunan normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada çağırış vərəqəsi ilə müvafiq məlumatın çatdırıldığı, o, çağırış vərəqəsini almaqdan imtina etdikdə və ya başqa şəkildə çağırış vərəqəsi ilə məlumatlandırılmadan yayındıqda, bunu təsdiq edən hallar müəyyən olunmalıdır.*

*"Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 12.8-ci maddəsinə və Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 30-cu maddəsinə əsasən xaricdə yaşayan Azərbaycan Respublikasının kişi cinsindən olan 18 yaşına çatmış vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılmaq üçün Azərbaycan Respublikasında daimi yaşayış yerlərindəki Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlmələri müvafiq konsul tərəfindən (öz konsul dairəsinin hüdudlarında olan şəxslərə münasibətdə) təmin edilir. Bu qaydada xəbərdar edildiyi andan həmin şəxslər məlumatlandırılmış hesab olunurlar.* [2]

***2-1.*** *Hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma (CM-in 321-ci maddəsi) haqqında cinayət işlərinə baxarkən məhkəmələr nəzərə almalıdırlar ki, CM-in 321-ci maddəsinin "Qeyd"inə əsasən növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin obyektiv cəhətinə daxil olan üzrlü səbəblər olmadan tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə, toplanışlara gəlməmə kimi əməllərə görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İXM) 606.3-cü maddəsində də məsuliyyət müəyyən edilmiş və həmin maddənin "Qeyd"inin 1-ci bəndində bu inzibati xətaları törətmiş şəxslər barədə məhkəmə qərar qəbul edənədək onların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), yəni Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlmələri onların inzibati məsuliyyətdən azad olunmasını şərtləndirən əsas kimi təsbit edilmişdir. Eyni zamanda İXM-in 606-cı maddəsinin "Qeyd"inin 2-ci bəndində nəzərdə tutulmuşdur ki, həmin Məcəllənin 606.3-cü maddəsində göstərilən əməl qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırış və ya səfərbərlik üzrə çağırış ilə bağlı törədildikdə CM-in müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur. Qeyd olunanlar inzibati məsuliyyətə səbəb olan üzrlü səbəblər olmadan tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə, toplanışlara gəlməmənin cinayət xarakterli eyni əməllərdən fərqləndirilməsini tələb edir və nə qədər ki, İXM-in 606-cı maddəsinin "Qeyd"inin 1-ci bəndi üzrlü səbəblər olmadan tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə gəlməyən şəxsin və ya toplanışlara gəlməyən hərbi vəzifəlinin inzibati məsuliyyətə cəlb olunanadək müvafiq dövlət orqanına gəlməsini inzibati məsuliyyəti istisna edən hal kimi təsbit edir, eyni zamanda*

*CM-in 321.1-ci maddəsinin dispozisiyası məhz növbəti hərbi çağırışdan (onun müəyyən mərhələsini təşkil edən tədbirdən deyil) boyun qaçırmanı cinayət əməli kimi göstərir, üzrlü səbəb olmadan gəlməyən şəxsin sonradan, lakin Azərbaycan Respublikası Prezidentinin növbəti həqiqi hərbi xidmətə çağırışla bağlı qüvvəyə minmiş aktında müəyyən edilən cari hərbi çağırış dövrü başa çatanadək tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə) və ya hərbi hissəyə yollanmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlməsi CM-in 321-ci maddəsi ilə də cinayət məsuliyyətini istisna edən hallar kimi qiymətləndirilməlidir.*

*CM-in 321-ci maddəsində təsbit edilmiş əməllər İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalardan həm də onunla fərqlənir ki, sözügedən cinayət-hüquqi normanın dispozisiyasına görə şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün üzrlü səbəblər olmadan tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə və ya toplanışa məhz hərbi xidmətdən yayınmaq üçün, yəni hərbi xidmətdən yayınmaq məqsədilə gəlməməsi tələb olunursa, İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalara münasibətdə belə məqsəd istisna olunur və çağırışçının və ya hərbi vəzifəlinin gəlməməsinin üzrlü səbəblə bağlı olmadığının müəyyən edilməsi həmin maddə ilə inzibati məsuliyyətin yaranmasının əsası kimi çıxış edir. Əvvəlcə çağırış vərəqəsində göstərilən vaxtda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlməyən vətəndaşın növbəti hərbi xidmətə çağırış başa çatanadək (cari çağırış dövründə çağırış komissiyasının işi qurtarmamış) həmin orqana gəldiyi halda isə onun hərbi xidmətdən yayınmaq məqsədində olmasına dair nəticə üçün əsas yaranmır.*

*CM-in 321.1-ci maddəsində nəzərdə tutulmuş cinayətkar məqsədi ehtiva edən "Hərbi xidmətdən yayınmaq üçün" ifadəsi altında hərbi xidmət keçməkdən tamamilə (birdəfəlik) yayınma deyil, cari çağırış üzrə hərbi xidmətdən yayınma başa düşülür və şəxs tamamilə deyil, hətta bir çağırış üzrə (bir çağırış daxilində) xidmətdən yayındıqda belə, onun CM-in 321.1-ci maddəsi ilə cinayət məsuliyyəti daşıması istisna edilmir.* [3]

***2-2.** Bu Qərarın 2-1-ci bəndində qeyd olunanlar nəzərə alınmaqla CM-in 321.1-ci maddəsi ilə məsuliyyətə səbəb olan əməllər qismində aşağıdakılar nəzərdən keçirilməlidir:*

*1) vətəndaşın Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri tərəfindən hazırkı Qərarın 2-ci bəndində nəzərdə tutulmuş qaydada məlumatlandırılmasına (çağırılmasına) baxmayaraq, Azərbaycan Respublikası Prezidentinin növbəti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı aktında müəyyən edilmiş həqiqi hərbi xidmətə çağırış müddəti (şəxsə şamil edilən cari çağırış) başa çatanadək hərbi xidmətdən boyun qaçırmaq üçün üzrlü səbəblər olmadan çağırış üzrə tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə) gəlməməsi;*

*2) vətəndaşın müddətli həqiqi hərbi xidmətini müəyyən olunmuş hərbi hissədə keçməsi üçün Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri tərəfindən çağırılması barədə hazırkı Qərarın 2-ci bəndində nəzərdə tutulmuş qaydada məlumatlandırılmasına baxmayaraq, Azərbaycan Respublikası Prezidentinin növbəti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı aktında müəyyən edilmiş həqiqi hərbi xidmətə çağırış müddəti (şəxsə şamil edilən cari çağırış) başa çatanadək hərbi xidmətdən yayınmaq üçün üzrlü səbəblər olmadan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlməməsi;*

*3) Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri tərəfindən hazırkı Qərarın 2-ci bəndində nəzərdə tutulmuş qaydada məlumatlandırılmasına (çağırılmasına) baxmayaraq, sağlamlıq vəziyyətinə görə 1 il müddətinədək möhlət verilmiş çağırışçının - möhlət müddəti bitdikdən*

*sonra, dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilən vətəndaşın isə 30 yaşına çatana qədər hər 3 ildən bir təkrar tibbi müayinəyə Azərbaycan Respublikası Prezidentinin növbəti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı aktında müəyyən edilmiş həqiqi hərbi xidmətə çağırış müddəti (şəxsə şamil edilə bilən cari çağırış) başa çatanadək hərbi xidmətdən yayınmaq üçün üzrlü səbəblər olmadan gəlməməsi;*

*4) hərbi vəzifəlilərin Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılması, səfərbərlik hazırlığının yoxlanılması, eləcə də fövqəladə hadisələrin qarşısının alınması və ya nəticələrinin aradan qaldırılması məqsədilə keçirilən toplanışlarla əlaqədar təhkim olunduqları hərbi hissələrə göndərilmək üçün Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri tərəfindən hazırkı Qərarın 2-ci bəndində nəzərdə tutulmuş qaydada məlumatlandırılmalarına (çağırılmalarına) baxmayaraq, hərbi xidmətdən yayınmaq üçün üzrlü səbəb olmadan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlməmələri;*

*5) Azərbaycan Respublikasında ümumi və ya qismən səfərbərlik elan olunduqdan sonra hərbi vəzifəlilərin hazırkı Qərarın 2-ci bəndində nəzərdə tutulmuş qaydada məlumatlandırılmalarına (çağırılmalarına) baxmayaraq, təhkim olunduqları hərbi hissələrə səfərbərlik üzrə hərbi xidmətə göndərilmək üçün çağırış üzrə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə və ya müəyyən olunmuş toplanış məntəqələrinə və ya hərbi hissələrə hərbi xidmətdən yayınmaq üçün gəlməmələri.* [4]

***2-3.** Hərbi qeydiyyatdan keçmək üçün vətəndaşların müəyyən olunmuş müddətdə üzrlü səbəblər olmadan Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlməmələri özü-özlüyündə CM-in 321-ci maddəsi ilə məsuliyyətə səbəb olan əməllər kimi qiymətləndirilə bilməz.*

*Belə ki, İXM-in 606.2-ci maddəsində nəzərdə tutulmuş vətəndaşların "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanundan irəli gələn hərbi qeydiyyat üzrə vəzifələrini yerinə yetirməməsi, yəni onların (müvafiq icra hakimiyyəti orqanının – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin ehtiyatına keçirilmiş hərbi vəzifəlilər istisna olmaqla) ehtiyata keçirildikdən sonra 7 gün müddətində yaşayış yeri üzrə hərbi qeydiyyata alınmaq üçün müvafiq icra hakimiyyəti orqanına gəlməməsi (İXM, maddə 606.2.1), hərbi vəzifəlilərin (müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər istisna olmaqla) və çağırışçıların yaşayış yerini 3 aydan çox müddətə dəyişdirdikdə, yaşayış yeri üzrə hərbi qeydiyyatdan çıxmaması və olduğu yer üzrə hərbi qeydiyyata durmaması (İXM, maddə 606.2.2), hərbi vəzifəlilərin və çağırışçıların yaşayış yerini dəyişərkən, 10 gün müddətində hərbi qeydiyyatda olduqları müvafiq icra hakimiyyəti orqanına məlumat verməməsi (İXM, maddə 606.2.3) hərbi qeydiyyat qaydalarının pozulması inzibati xətasının tərkibini yaradan hüquq pozuntuları hesab edilir.*

*Lakin çağırışçının məhz hərbi xidmətdən yayınmaq, o cümlədən tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə çağırılmasına dair çağırış vərəqəsinin çatdırılmasının qarşısını almaq üçün ona şamil edilən cari çağırış müddəti başa çatanadək yaşayış yerini 3 aydan çox müddətə dəyişdirdikdə yaşayış yeri üzrə hərbi qeydiyyatdan çıxmaması və olduğu yer üzrə hərbi qeydiyyata durmaması və ya yaşayış yerini dəyişərkən "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 7.3-cü maddəsində göstərilən vəzifəsinə əməl etməyərək hərbi qeydiyyatda olduğu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə məlumat*

*verməməsi CM-in 321-ci maddəsi ilə məsuliyyətə səbəb olan əməllər kimi qiymətləndirilə bilər.* [5]

**3.** *CM-in 321-ci maddəsində nəzərdə tutulmuş növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin subyekti tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə, toplanışlara və səfərbərlik üzrə hərbi xidmətə çağırılan Azərbaycan Respublikası vətəndaşlarıdır. Müddətli hərbi xidmətə - Azərbaycan Respublikasının 18 yaşına çatmış, yaşı 30-dan çox olmayan sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan, çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş kişi cinsli vətəndaşları, zabitlərin həqiqi hərbi xidmətinə - müddətli həqiqi hərbi xidmət keçməmiş, yaşı 35-dən çox olmayan, sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş ehtiyatda olan zabitlər çağırılırlar.*

*Vətəndaşlığı olmayan şəxslər və xarici ölkə vətəndaşları CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti ola bilməzlər. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş, lakin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verilməmiş çağırışçılar ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar. Azərbaycan Respublikası vətəndaşının xaricdə yaşaması CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti olmasını istisna etmir.*

*Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin I hissəsinə, habelə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 3.2-ci maddəsinə əsasən 18 yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının üzərinə müddətli həqiqi hərbi xidmət keçmək deyil, həmin Qanunun 2-ci və 3-cü fəsilləri ilə müəyyən edilmiş ilkin hərbi qeydiyyata alınma, çağırışaqədərki hazırlıq və bunlardan irəli gələn sair (o cümlədən ilkin hərbi qeydiyyata alınmaqla əlaqədar tibbi müayinədən keçmək kimi) vəzifələr qoyulduğuna görə, çağırışaqədər yaş həddində olan (qeydiyyata alındığı ildə 15 yaşı tamam olan lakin 18 yaşına çatmayan) şəxslərin üzrlü səbəblər olmadan tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə) gəlməmələri hərbi xidmətdən yayınmaq üçün növbəti çağırışdan boyun qaçırma kimi qiymətləndirilə və həmin şəxslər CM-in 321-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətlərin subyekti hesab oluna bilməzlər. Lakin müvafiq əsaslar, o cümlədən hüquq pozuntusu törədilən vaxt şəxsin 16 yaşı olduqda çağırışaqədər yaş həddində olan şəxslərin tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə) üzrlü səbəblər olmadan gəlməməsi ilə əlaqədar onların özlərinin və yaxud qanuni nümayəndələrinin İXM-in 604-cü maddəsinə əsasən (ilkin hərbi qeydiyyata alınmaqdan boyun qaçırmaya görə) məsuliyyətə cəlb olunması istisna edilmir.*

*Odur ki, birlikdə götürülməklə CM-in 321-ci maddəsinin "Qeyd"inə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 2.0.8 və 15.1-ci maddələrinə əsasən yalnız çağırışçılar (o cümlədən hazırkı Qərarın 2-2-ci bəndinin 3-cü yarımbəndində göstərilən sağlamlıq vəziyyəti ilə əlaqədar verilmiş möhlət hüququ bitmiş və yaxud 3 illik müddətin tamamında yenidən tibbi müayinəyə cəlb edilməli olan ehtiyata keçirilmiş çağırışçılar), yəni 18 yaşından 30 yaşınadək kişi cinsindən olan Azərbaycan Respublikası vətəndaşları üzrlü səbəblər olmadan tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə) gəlməməyə görə CM-in 321-ci maddəsi ilə məsuliyyət daşıya bilərlər (həmin Qanunun 15.1-ci maddəsinə əsasən "Çağırışçılar çağırış vərəqəsində qeyd olunan müddətdə müvafiq tibb müəssisəsinə gəlməlidirlər.", Qanunun 2.0.8-ci maddəsində isə nəzərdə tutulmuşdur ki, "çağırışçılar – ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşından 30 yaşınadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları"dır).*

*CM-in 321-ci maddəsinin "Qeyd"ində həmin Məcəllənin 321.1-ci maddəsində təsbit olunmuş "çağırışdan boyun qaçırma" anlayışı həm də vətəndaşın üzrlü səbəb olmadan toplanışa çağırış üzrə gəlməməsi kimi izah edildiyindən, bu maddə ilə məsuliyyət daşıyan (CM-in 321.1-ci maddəsinin dispozisiyası ilə ehtiva olunan subyektlər) kimi "Hərbi vəzifə və*

*hərbi xidmət haqqında" Qanunun 45-ci maddəsinə müvafiq olaraq ehtiyatda olduqları dövrdə hərbi təlim, hərbi yoxlama üzrə və ya xüsusi toplanışlara çağırılmış (Qanunun 46-cı maddəsinə əsasən toplanışlardan azad edilməli olmayan) hərbi vəzifəlilər başa düşülməlidir.*[6]

**4.** *"Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" 2005-ci il 10 iyun tarixli Azərbaycan Respublikası Qanununun 1.0.2-ci maddəsinə əsasən səfərbərlik – Azərbaycan Respublikası iqtisadiyyatının, icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının və təşkilatların müharibə dövrünün iş rejiminə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin və xüsusi birləşmələrin müharibə dövrü üçün müəyyən edilmiş təşkilati-ştat strukturuna keçirilməsinə dair tədbirlər kompleksidir.*

*Azərbaycan Respublikasında ümumi və ya qismən səfərbərlik Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə elan olunur.*

*"Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun 14.2-ci maddəsinə əsasən ehtiyatda olan və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan vətəndaşlar səfərbərlik elan edildikdə səfərbərlik üzrə hərbi xidmətə çağırılırlar.* [7]

**4-1.** *CM-in 321.1-ci maddəsinin dispozisiyasına əsasən çağırışçının və ya hərbi vəzifəlinin çağırış üzrə tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), müddətli həqiqi hərbi xidmətə, toplanışlara və səfərbərlik üzrə hərbi xidmətə çağırış üzrə gəlməməsinin üzrsüz səbəblərə görə baş verməsi və hərbi xidmətdən yayınmaq üçün törədilməsi tələb olunduğu üçün sözügedən cinayət tərkiblərinin zəruri əlamətləri kimi çıxış edən həmin səbəblər və cinayətkar məqsəd bu cinayətlərə dair işlərdə sübutetmə predmetini təşkil edir və bu səbəbdən CPM-in 139-cu maddəsinə əsasən müvafiq materiallarla sübuta yetirilməlidir.*

*Şəxsin xidmətdən yayınmaq məqsədinə dəlalət edən hallar kimi onun çağırış vərəqəsini qəbul etməkdən imtina etməsi və ya başqa vasitələrlə qəbul etməkdən yayınması, o cümlədən olduğu yeri hərbi qeydiyyatda olduğu orqandan gizlətməsi, məlumat vermədən xaricə getməsi, xəstə olmasını simulyasiya etməsi, üzrlü halların, möhlət hüququ verən əsasların olmasını təsdiq etmək üçün saxta sənədlər hazırlaması, əldə etməsi, təqdim etməsi, özünə xəsarət yetirməsi, möhlət hüququna əsas olmuş halların ortadan qalxdığını gizlətməsi, hərbi xidmətə çağırış üzrə məsələnin həlli üçün əhəmiyyətli olan digər hallar barədə yalan məlumatlar verməsi və s. nəzərə alına bilər.*

*Azərbaycan Respublikası Prezidentinin şəxslərin hərbi xidmətə çağırılması haqqında sərəncamı ilə müəyyən edilmiş müddətdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlməməyin üzrlü səbəbləri çağırışçının xəstəliyi (tibb müəssisəsinin xəstəlik barədə tibbi arayışı əsasında) və ya fövqəladə və ya digər qarşısı alına bilinməyən hallardır (bu zaman şəxsin gəlməyinin mümkün olmaması çağırışçının yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməlidir). Konkret şəxsə münasibətdə qarşısı alına bilməyən hallar müxtəlif ola və bu Qərarın 15-ci bəndində qeyd olunan ağır şərait zəminində baş vermiş hallar da üzrlü hallar kimi qiymətləndirilə bilər. Məhkəmə baxışında belə halların mövcudluğu baxılmış materiallarla kifayət qədər sübuta yetirildikdə, müvafiq icra hakimiyyəti orqanının təsdiqlənməsinin olmaması və s. bu kimi formal əsasa görə üzrlü halların müəyyən edilməsindən imtina edilməməlidir.* [8]

**4-2.** *Yalnız sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan şəxs CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti ola bildiyi üçün maddənin dispozisiyası və "Qeyd"i ilə ehtiva olunan əməllərin məhkəməyədək icraatda araşdırılması zamanı ibtidai istintaq orqanı tərəfindən həmin şəxslərin sağlamlıq vəziyyəti hərbi xidmətə yararlılıq*

*baxımından tam araşdırılmalı, bu məsələ araşdırılmadan CM-in 321-ci maddəsi ilə ittihamın irəli sürüldüyü məhkəmə baxışında müəyyən edildikdə, bu pozuntu xüsusi qərarın çıxarılmasına əsas verən hal kimi nəzərdən keçirilməlidir.* [9]

**5.** *CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətlər uzanan cinayətlər olduğu üçün başa çatmış həqiqi hərbi xidmətə növbəti çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma əməllərinə görə məsuliyyət çağırışçı Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə üzrlü səbəblər olmadan hərbi xidmətdən yayınmaq üçün cari çağırış müddətinin sonuna (çağırış komissiyasının işi qurtarana) qədər gəlmədikdə, ehtiyatda olan və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan şəxs isə üzrlü səbəblər olmadan hərbi xidmətdən yayınmaq üçün müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, Dövlət Təhlükəsizliyi Xidmətinə və Xarici Kəşfiyyat Xidmətinə) gəlmədikdə yaranır (hüquqi anlamda cinayətin başa çatması). Lakin faktiki cinayət əməli şəxsin tutulması və ya könüllü gəlib təqsirini boynuna alması və yaxud vətəndaşın hərbi xidmətə çağırılmasını istisna edən, məsələn, çağırışçının 30 yaşına və ya səfərbərliyin sona çatması kimi halların meydana gəlməsi anında bitir.*

*Odur ki, şəxsin cinayət məsuliyyətinə cəlb etmə müddətinin hesablanması cinayətin faktiki bitdiyi ana görə həll edilməlidir. Lakin çağırışçı 30 yaşına çatdıqdan və ya səfərbərlik üzrə hərbi xidmətdən boyun qaçırmış şəxs səfərbərlik sona çatdıqdan (hərbi xidmətə çağırılmanı istisna edən əsaslar meydana gəldikdən) sonra da istintaqdan və məhkəmədən gizlənməyə davam edərsə, CM-in 75.3-cü maddəsinə müvafiq olaraq cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımı dayanmalı və yalnız şəxs tutulduqda və ya könüllü gəldikdə müddətin axımı davam etməlidir.*

*Yuxarıda qeyd edilən izahlara analoji qaydada tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə), toplanışlara çağırış üzrə gəlməmənin hüquqi və faktiki anlamda başa çatma anları müəyyən edilməklə bundan irəli gələn məsələlər həll edilməli, o cümlədən çağırışçı cari çağırış müddətinin sonunadək üzrlü səbəblər olmadan hərbi xidmətdən yayınmaq üçün tibbi müayinəyə (tibbi şəhadətləndirilməyə) çağırış üzrə gəlmədiyi, habelə ehtiyatda olan hərbi vəzifəli toplanışa göndərilmək üçün müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə və ya öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə) üzrlü səbəblər olmadan hərbi xidmətdən yayınmaq məqsədilə gəlmədiyi andan hüquqi anlamda müvafiq cinayət başa çatmış hesab edilməli, cinayətin faktiki bitdiyi vaxt kimi isə şəxsin könüllü gəldiyi və ya tutulduğu, eləcə də həqiqi hərbi xidmətə çağırılması və ya toplanış keçməsi üçün hüquqi əsaslar ortadan qalxdığı an qəbul edilməlidir.*

*Hüquqi anlamda cinayət başa çatdıqdan sonra hərbi xidmət keçməkdən boyun qaçıranın Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlməsi cinayətdən könüllü imtina etmə kimi deyil, cəzanı yüngülləşdirən hal kimi nəzərə alına bilər.* [10]

**6.** Hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma məqsədilə vəzifəli şəxsə rüşvət vermə CM-in 321 və 312-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin, *eyni məqsədlə saxta sənəd əldə etmə, hazırlama və ya saxta sənəddən istifadə etmə CM-in 321-ci maddəsi ilə CM-in 320-ci maddəsində nəzərdə tutulmuş cinayətlərin* məcmusunu yaradır. [11]

**7.** Hərbi cinayətlərin subyekti hərbi qulluqçulardır.

*“Hərbi qulluqçuların statusu haqqında” 1991-ci il 25 dekabr tarixli 36 nömrəli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları təhsil müəssisəsinə daxil olduqları gündən hərbi qulluqçu statusu əldə edirlər və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 30.4-1-ci maddəsinə əsasən kursant hərbi rütbəsi əsgər (matros) hərbi rütbəsinə bərabər tutulur.*

*Bununla belə, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunun 36.1.2-ci maddəsinə müvafiq olaraq xüsusi təyinatlı ali təhsil müəssisəsinə və ya orta ixtisas təhsili müəssisəsinə qəbul edilmiş, lakin qəbul edildiyi ildə 17 yaşı tamam olan (18 yaşına çatmayan) kursantlar, həmin Qanunun 3.2-ci maddəsinə əsasən yalnız 18 yaşı tamam olmuş şəxslər müddətli həqiqi hərbi xidmət keçmək vəzifəsi daşıdıqlarına və Qanunun 36-cı maddəsinin “Qeyd” hissəsinin 1-ci bəndinə əsasən belə şəxslərin müstəqil surətdə (qanuni nümayəndələrinin razılığı olmadan) bağlaşma əsasında təhsil müəssisəsinə (hərbi xidmətə) qəbul edilməsi istisna edildiyinə görə, hərbi cinayətlərin subyekti hesab edilə və hərbi cinayətlərə görə cinayət məsuliyyətinə cəlb oluna bilməzlər.*

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 1-ci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair” *2001-ci il 26 oktyabr* tarixli Qərarına müvafiq olaraq çağırışçılar üçün hərbi qulluqçu statusuna malik olmaqla hərbi xidmətə daxil olmanın başlanğıcı onların hərbi hissə komandirlərinin (hərbi tədris müəssisələrinin rəislərinin) əmrinə əsasən şəxsi heyətin siyahısına daxil edildikləri və bütün təminat növləri üzrə təminata götürüldükləri gün hesab olunur.

*Hərbi vəzifəlilər və qadınlar üçün isə xidmətin başlanğıcı Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri tərəfindən göstərilmiş xidmət yerinə yola düşdükləri gün hesab olunur.* [12]

Hərbi xidmətdən buraxılması ilə əlaqədar hərbi hissə komandirinin əmri ilə şəxsi heyətin siyahısından çıxarıldığı gün hərbi qulluqçunun hərbi xidmətinin sonu sayılır.

**8.** *Məhkəmələr nəzərə almalıdırlar ki, CM-in 333.1-ci maddəsi ilə cinayət məsuliyyəti müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantının hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmayaraq törədildikdə yaranır.*

*“Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş “gün” anlayışına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 2019-cu il 14 fevral tarixli Qərarı ilə müəyyən edilmişdir ki, CM-in 333-cü maddəsində nəzərdə tutulmuş “gün” anlayışı 24 saatlıq müddəti ehtiva edir. Həmin maddədə göstərilmiş müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanır.* [13]

**9.** CM-in 333-cü maddəsində nəzərdə tutulmuş cinayətlər haqqında işlərə baxarkən, məhkəmələr nəzərə almalıdırlar ki, bu cinayətlərə görə məsuliyyət, hərbi qulluqçunun hərbi hissənin *(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin)* mövqeyini

*(ərazisini)* və ya xidmət yerini komandirin (rəisin) icazəsi olmadan tərk etdiyi hallarda yaranır. [14]

Hərbi hissəni *(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini)* və ya xidmət yerini buraxıb getmə icazə vermək hüququ olmayan rəisin icazəsi ilə olduqda, ~~*bu,*~~ özbaşına tərk etmə hesab oluna bilməz. Belə hallarda qanunsuz hərəkətə görə məsuliyyət getmə qaydalarının pozulmasına yol verən rəisin üzərinə düşür. [15]

*Cinayət məsuliyyətinə səbəb olan hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə vaxtında gəlməmə ondan ibarətdir ki, hərbi qulluqçu qanuni əsaslarla hərbi hissənin (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin) mövqeyindən (ərazisindən) və ya xidmət yerindən getdikdən sonra üzrlü səbəblər olmadan müəyyən olunmuş müddətdə hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə qayıtmır.* [16]

Əgər müvafiq rəisin icazə vermək hüququnun olmaması hərbi qulluqçuya əvvəlcədən məlum olmuşdursa, belə hallarda hərbi qulluqçu qanunsuz hərəkətinə görə ümumi əsaslarla cinayət məsuliyyəti daşıyır.

*Nəzərə almaq lazımdır ki, əgər gəlməmə üzrlü səbəblərdən baş vermişdirsə, cinayət məsuliyyətinə səbəb olmur. Hərbi qulluqçunun hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə xəstəliyi ilə bağlı vaxtında gəlməməsi tibb müəssisəsinin xəstəlik barədə tibbi arayışı ilə, vaxtında gəlməyə imkan verməyən təbii fəlakət və s. xarakterli hadisələrlə bağlı olduqda isə gəlməyin mümkün olmadığı yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməlidir.* [17]

*Üzrlü səbəblər aradan qalxdığı, lakin bundan sonra da hərbi qulluqçu hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə qayıtmadığı halda həmin dövrə münasibətdə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi ümumi qaydada həll olunmalıdır.* [18]

**10.** Hərbi hissənin mövqeyi dedikdə, kazarmanın, düşərgənin sahəsi və ya hərbi hissənin yürüş vaxtı tutduğu yer nəzərdə tutulur.

Xidmət yeri, *hərbi* hissənin mövqeyinin yerləşdiyi sahədə deyilsə, hərbi qulluqçunun müəyyən müddət ərzində hərbi vəzifələrini icra etdiyi, yaxud komandirin əmri və ya icazəsi ilə olduğu yer başa düşülür (məsələn, *hərbi* hissənin mövqeyindən kənarda təsərrüfat işlərinin görüldüyü yer, təlim dərslərinin keçirildiyi yer və s.). [19]

**11.** *Fərariliyə dair cinayət işlərinə baxılarkən məhkəmələr nəzərə almalıdırlar ki, fərarilik hərbi qulluqçunun müddətindən asılı olmayaraq, hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi hissəni və ya xidmət yerini buraxıb getməkdə, eləcə də başqa hərbi hissəyə dəyişdirilərkən, təyinat alarkən, ezamiyyətdən, məzuniyyətdən və ya müalicə müəssisəsindən qayıdarkən eyni məqsədlə hərbi hissəyə və ya xidmət yerinə gəlməməkdə ifadə olunur.* [20]

**12.** *Fərarilik cinayəti hərbi qulluqçu müddətindən asılı olmayaraq, hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına buraxıb getdiyi və yaxud hərbi hissəyə və ya xidmət yerinə qayıtmadığı vaxtdan başa çatmış hesab olunur.*

*Fərarilik cinayətini CM-in 333-cü maddəsində nəzərdə tutulmuş hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etmə əməllərindən fərqləndirərkən nəzərə almaq lazımdır ki, əgər CM-in 333-cü maddəsində təsbit edilmiş əməllər, o cümlədən üç aydan artıq müddətə hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) özbaşına tərk etmə və ya hərbi xidmət yerinə vaxtında gəlməmə (CM, maddə 333.4-1) hərbi qulluqçunun bu əməlləri hərbi*

*xidmətdən müvəqqəti yayınmaq məqsədilə törətməsini ehtiva edirsə, CM-in 334-cü maddəsində "hərbi xidmətdən boyun qaçırmaq məqsədi" dedikdə, hərbi xidmətdən tamamilə, yəni birdəfəlik yayınmaq məqsədi ehtiva olunur və hərbi qulluqçu hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etdiyi və yaxud hərbi xidmət yerinə qayıtma vaxtı başa çatdıqdan sonra gəlmədiyi anda onun belə məqsəd güddüyü müəyyən edilirsə, artıq yayınma müddətinin nə qədər təşkil etməsindən (hətta CM-in 333-cü maddəsində göstərilən müddətlər qədər olmasından) asılı olmayaraq şəxsin CM-in 334-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsi üçün əsas yaranır.*

*Hərbi qulluqçu hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk edərkən məqsədi hərbi xidmətdən müvəqqəti yayınmaq olmuşdusa belə, sonradan hərbi xidmətdən tamamilə yayınmaq məqsədinin yaranması, artıq özbaşına tərk etmə daha ağır cinayətə (fərariliyə) çevrildiyi üçün əməl CM-in 333-cü maddəsi ilə və yaxud bu maddədə və CM-in 334-cü maddəsində nəzərdə tutulmuş cinayətlərin məcmusu kimi deyil, məhz CM-in 334-cü maddəsi ilə tövsif edilməlidir.* [21]

***12-1.** CM-in 333 və 334-cü maddələrində göstərilən cinayətlər uzanan cinayətlərdir. Bu səbəbdən (baxmayaraq ki, hüquqi cəhətdən başa çatmış fərarilik cinayətinin tərkibi hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi xidmət yerini özbaşına buraxıb getdiyi və ya eyni məqsədlə qayıtmadığı vaxtdan yaranır), istər fərarilik, istərsə də CM-in 333-cü maddəsində nəzərdə tutulmuş cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımı şəxsin könüllü gəldiyi və ya tutulduğu, yəni uzanan cinayət faktiki anlamda bitdiyi vaxtdan başlayır. Eynilə, hərbi xidmətdə olmanı şərtləndirən əsasların aradan qalxdığı (məsələn, şəxsin hərbi xidmətdə olmanın son yaş həddinə çatdığı) gün də CM-in 333 və 334-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin faktiki anlamda başa çatma vaxtı kimi qiymətləndirilməli, lakin şəxs bundan sonra da istintaqdan və ya məhkəmədən gizlənməkdə davam edərsə, cinayət məsuliyyətinə cəlb etmə müddəti hərbi xidmətdə olmanı şərtləndirən əsaslar ortadan qalxdığı vaxtdan deyil, şəxsin könüllü gəldiyi və ya tutulduğu vaxtdan hesablanmalıdır.* [22]

**13.** *Başa çatmış fərarilik cinayətinə görə şəxsin CM-in 334-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunması üçün əsas hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi xidmət yerini özbaşına buraxıb getdiyi və ya eyni məqsədlə qayıtmadığı vaxtdan yarandığı üçün onun hər hansı müddətdən sonra hərbi hissəyə (xidmət yerinə) gəlməsi və ya özünü hakimiyyət orqanına təqdim etməsi cinayəti törətməkdən könüllü imtina kimi deyil, könüllü gəlib təqsirini boynuna alma, yəni CM-in 59.1.10-cu maddəsində nəzərdə tutulmuş cəzanı yüngülləşdirən hal kimi qiymətləndirilməlidir.* [23]

**14.** Məhkəmələr nəzərə almalıdırlar ki, CM-in 328-ci maddəsinin qeydinə əsasən döyüş şəraiti dedikdə, hərbi hissənin və ya bölmənin bilavasitə düşmənə qarşı durması və ya faktiki döyüş əməliyyatı aparması başa düşülür.

Hərbi qulluqçu yalnız bu cür hərbi hissə və bölmələri özbaşına tərk etdikdə, yaxud bu *hərbi* hissələrdən *və ya bölmələrdən* fərarilik etdikdə həmin əməllər müvafiq surətdə CM-in 333.6 və ya 334.3-cü maddəsi ilə tövsif edilməlidir. [24]

**15.** CM-in 333 və 334-cü maddələrinin qeydində göstərilmişdir ki, bu Məcəllənin 333.1-333.4 və 334.1-ci maddələrində nəzərdə tutulmuş əməlləri ağır şərait zəminində ilk dəfə törətmiş şəxslər cinayət məsuliyyətindən azad edilə bilər.

Qanunun mənasına görə “ağır şərait” anlayışına hərbi qulluqçunun yaxın qohumlarının gözlənilməz ağır xəstəliyi, ciddi ailə münaqişələri, hərbi qulluqçunun yaxın qohumlarının yaşadığı yerdə baş vermiş təbii fəlakət və bu kimi hallar daxildir.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etmə və ya fərarilik ayrı-ayrı hallarda komandirlərin (rəislərin) qanuna zidd əmrləri, nizamnamədən kənar rəftar edilməsi, mütəmadi surətdə hörmətsizlik, fiziki və psixi məcburiyyət və bu kimi digər hərəkətlərlə əlaqədar ola bilər. Belə hallarda müəyyən edilmiş konkret vəziyyətdən asılı olaraq əməlin son zərurət vəziyyətində törədilmiş hərəkət olub-olmamasına hüquqi qiymət verilməlidir.

**16.** İntizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş və orada cəza çəkən şəxs həmin hərbi hissədən özbaşına getdikdə onun əməli CM-in 333.5-ci maddəsi ilə tövsif edilməlidir. Bu halda özbaşına getmənin müddəti əməlin tövsifinə təsir göstərmir.

Barəsində həbs qətimkan tədbiri seçilmiş və *hauptvaxtda* saxlanılan hərbi qulluqçunun cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədilə həbsdən qaçması CM-in 304-cü maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaradır. [25]

**17.** *Hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini* özbaşına tərk etmiş və ya fərarilik etmiş şəxs hərbi xidmət üzrə vəzifələrini icra edən rəisə və ya hərbi qulluq vəzifəsini yerinə yetirən başqa şəxsə müqavimət göstərdikdə, onun əməli müvafiq surətdə CM-in 333 və ya 334-cü, eləcə də *330-cu* maddəsində nəzərdə tutulmuş cinayətlərin məcmusu üzrə tövsif olunmalıdır. [26]

Qətimkan tədbiri kimi hərbi hissə komandanlığının müşahidəsi altına verilmiş hərbi qulluqçunun məhkəməyədək icraat zamanı, yaxud cinayət *işinə* məhkəmədə baxılarkən *hərbi hissənin (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin) mövqeyini (ərazisini)* və ya xidmət yerini özbaşına tərk etməsi *hərbi xidmətdən yayınma* müddətindən və həmin əməli törətmiş şəxsin məqsədindən asılı olaraq CM-in 333 və ya 334-cü maddəsi ilə tövsif edilməlidir. [27]

**18.** *Hərbi hissəni (xidmət yerini) özbaşına tərk edən və ya fərarilik edən hərbi qulluqçuların xidməti istifadəsi üçün verilmiş silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların, habelə nəqliyyat vasitələrinin və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaları nəticəsində həmin əmlakı itirmələri mühüm zərər vurduqda müvafiq olaraq CM-in 333 və ya 334, həmçinin 347-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin tərkibini yaradır.* [28]

**19.** Hərbi qulluqçu hərbi hissəni *(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini* özbaşına tərk edərkən və ya fərarilik edərkən, xidməti istifadə üçün ona verilmiş odlu silahı, *onun komplekt hissələrini,* döyüş sursatını və ya partlayıcı maddələri *və qurğuları* mənimsəmək, satmaq və ya istədiyi kimi onun üzərində başqa cür sərəncam vermək məqsədilə özü ilə apararsa, onun əməli CM-in 333 və ya 334-cü, eləcə də 232-ci maddəsi ilə tövsif olunmalıdır. [29]

**20.** *Hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə, yaxud belə məqsədi olmadan hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini tərk edərkən, xidməti istifadə üçün ona verilmiş nəqliyyat vasitəsini və ya digər hərbi əmlakı öz mülkiyyətinə və ya başqa şəxsin mülkiyyətinə keçirmək məqsədilə özü ilə apararsa, onun hərəkəti hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini tərk etmə və ya fərarilik, eləcə də özgə əmlakını mənimsəmə kimi tövsif olunmalıdır.* [30]

**21.** Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etməklə əlaqədar olan cinayətlər törədilərkən hərbi hissənin avtomaşınlarının və ya başqa nəqliyyat vasitəsinin mənimsəmə

məqsədi olmadan qaçırılması CM-in 333 və ya 334-cü, həmçinin 185-ci maddəsi ilə tövsif olunmalıdır.

**22.** Hərbi qulluqçunun hərbi hissəni *(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini* özbaşına tərk etməsi və ya fərarilik törətməsi ilə yanaşı, xüsusi xidmət qaydalarını da pozması cinayətlərin məcmusu üzrə o halda tövsif oluna bilər ki, müvafiq xidmət qaydalarının pozulması CM-in 336, 337, 338, 339 və 340-cı maddələrində nəzərdə tutulmuş nəticələrə *və ya CM-in 338, 339 və 340-cı maddələrində göstərilən əməllər üzrə dövlətin təhlükəsizlik mənafelərinə real təhlükənin yaranmasına* səbəb olsun. [31]

**23.** Həqiqi hərbi xidmətə çağırışdan və səfərbərlik üzrə çağırışdan boyun qaçırma, hərbi hissəni *(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini)* və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik cinayətlərində təqsirli bilinmiş şəxslərə cəza təyin edərkən məhkəmələr cinayətin ictimai təhlükəlilik dərəcəsini, təqsirkarın şəxsiyyətini, məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaqla cəzanın fərdiləşdirilməsinə xüsusi diqqət yetirməlidirlər. Əməlin ictimai təhlükəlilik dərəcəsi müəyyən olunarkən cinayətin törədildiyi bütün hallar (motiv, şərait və s.) nəzərə alınmalıdır. [32]

**24.** Bu kateqoriyadan olan işlərə baxılarkən cinayətin baş verməsinə səbəb olan bütün halların tədqiq olunması və müəyyənləşdirilməsi zəruridir. Belə hallar aşkar olunduqda məhkəmələr xüsusi qərarla vəzifəli şəxslərin diqqətini müvafiq zəruri tədbirlər görülməsinə cəlb etməlidirlər.
*(Çıxarılıb)* [33]

***24-1.*** *CPM-in 214.4-1-ci maddəsi ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təhqiqatçılarına müstəsna olaraq Müdafiə Nazirliyinə aid hərbi hissələrin və hərbi idarələrin ərazisində Müdafiə Nazirliyinin hərbi qulluqçuları tərəfindən törədilmiş CM-in 329.1, 330.1, 332.1, 332.1-1, 333.1-333.3, 350.1, 350.1-1 və 351.1-ci maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat aparmaq səlahiyyəti verildiyindən, məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın aparılmasına yol verilən digər – CPM-in 214.4-cü maddəsində göstərilən böyük ictimai təhlükə törətməyən cinayətlərə münasibətdə Müdafiə Nazirliyinin təhqiqatçıları tərəfindən təhqiqat məhkəməyədək sadələşdirilmiş icraat şəklində deyil, CPM-in 214.2.3-cü maddəsində müəyyən edildiyi kimi cinayət işi üzrə təhqiqat (təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı) şəklində aparıla bilər.*

*Nəzərə almaq lazımdır ki, CM-in 329.1, 330.1, 332.1, 332.1-1, 333.1-333.3, 350.1, 350.1-1 və 351.1-ci maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə cinayət təqibi CPM-in 37.6-cı maddəsinə əsasən ictimai ittiham qaydasında aparıldığından, CM-in 333.1-333.3-cü maddələrində göstərilən cinayətlərdən başqa digər cinayətlərə münasibətdə məhkəməyədək sadələşdirilmiş icraat şəklində cinayət təqibi həm CM-in 329.1, 330.1, 332.1, 332.1-1, 350.1, 350.1-1 və 351.1-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlər nəticəsində zərərçəkmiş şəxslərin ərizələri, həm də hərbi hissənin komandirlərinin müraciətləri əsasında, CM-in 333.1-333.3-cü maddələrində nəzərdə tutulmuş (fiziki və ya hüquqi şəxslərin zərərçəkmiş şəxs qismində tanınmasının istisna edildiyi) cinayətlər üzrə isə yalnız hərbi hissə komandirlərinin müraciətləri əsasında başlana bilər. Məhkəməyədək sadələşdirilmiş icraat hərbi hissə komandirinin müraciəti əsasında başlandıqda onların məhkəməyədək sadələşdirilmiş icraatda zərərçəkmiş şəxs qismində tanınmasına yol verilməməlidir.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin*

*şərh edilməsinə dair" 2011-ci il 15 iyul tarixli Qərarında ifadə olunmuş hüquqi mövqeyə əsasən zərərçəkmiş şəxslə barışığa görə cinayət məsuliyyətindən azad etməni təsbit edən CM-in 73-cü maddəsi bütün böyük ictimai təhlükə törətməyən cinayətlərə şamil edilir. Bu mövqe Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73.1 və 73.2-ci maddələrinin şərh edilməsinə dair" 2022-ci il 25 iyul tarixli Qərarında da təkrar olunmuşdur.*

*Lakin zərərçəkmiş şəxslə barışığa görə CM-in 73-cü və ya 73-1-ci maddəsinə əsasən cinayət məsuliyyətindən azad etmə yalnız fiziki və ya hüquqi şəxslərə zərərin vurulması ilə nəticələnən, yəni CPM-in 87.1-ci maddəsinə müvafiq olaraq mənəvi, fiziki və ya maddi zərərin vurulması ilə əlaqədar fiziki şəxsin və ya CPM-in 87.3-cü maddəsinə əsasən mənəvi və ya maddi zərərin vurulması ilə əlaqədar hüquqi şəxsin zərərçəkmiş şəxs qismində tanındığı cinayətlərə dair işlərdə mümkün olduğundan, CM-in 333.1-333.3-cü maddələrində nəzərdə tutulmuş cinayətlərdə isə hərbi xidmət keçmə qaydalarına qəsd olunmaqla fiziki və ya hüquqi şəxslərə zərər vurulmadığından, bu cinayətlər üzrə hər hansı bir subyektin zərərçəkmiş şəxs qismində tanınması, müvafiq olaraq da zərərçəkmiş şəxslə barışığın əldə olunması və CM-in 73.1-ci maddəsində nəzərdə tutulmuş qaydada zərərçəkmiş şəxslə barışığa görə hərbi qulluqçunun cinayət məsuliyyətindən azad olunması istisna edilir.*

*Bundan fərqli olaraq, yuxarıda istinad olunan Konstitusiya Məhkəməsi Plenumunun qərarlarında ifadə olunmuş hüquqi mövqe CM-in 329.1, 330.1, 332.1, 332.1-1, 350.1, 350.1-1 və 351.1-ci maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən cinayətlərə dair işlərdə zərərçəkmiş şəxslə barışığa görə hərbi qulluqçunun CM-in 73.1-ci maddəsinə əsasən cinayət məsuliyyətindən azad edilməsini (həmin maddədə nəzərdə tutulmuş digər zəruri şərtlər olduqda) istisna etmir.* [34]

**25.** Bu Qərarın qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasının silahlı qüvvələri sıralarına həqiqi hərbi xidmətə növbəti çağırışdan boyun qaçırma, özbaşına getmə, hissəni və ya qulluq yerini özbaşına buraxıb getmə, döyüş şəraitində hissəni özbaşına buraxıb getmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 1994-cü il 20 may tarixli 1 nömrəli Qərarı qüvvədən düşmüş hesab edilsin.

**S.C.HƏSƏNOVA**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 20 fevral 2023-cü il tarixli 8 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı – *(Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsi)*.

**2.** 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı – *(Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsi)*.

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 1-ci bəndin birinci abzasına "hərbi hissəni" sözlərindən sonra "(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini)" sözləri əlavə edilmişdir.

[2] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"**2.** Hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma (CM-in 321-ci maddəsi) haqqında cinayət işlərinə baxarkən məhkəmələr nəzərə almalıdırlar ki, bu cinayətlərin tərkibi o zaman yaranır ki, həmin cinayətlərin subyektləri əvvəlcədən hərbi komissarlıq tərəfindən yazılı surətdə xəbərdarlıq edilmələrinə baxmayaraq üzrlü səbəblər olmadan hərbi komissarlığın fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə və göstərilmiş məntəqəyə gəlməməklə çağırışdan boyun qaçırmış olsunlar.

Çağırışçının hərbi xidmət keçməkdən boyun qaçırmaq məqsədilə fərdi çağırış vərəqəsinə imza etməkdən imtina etməsi və ya yayınması müvafiq sübutlarla təsdiq olunarsa, təkcə çağırış vərəqəsində imzanın olmaması onun cinayət məsuliyyətindən azad edilməsi üçün əsas götürülə bilməz.".

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

**"2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" 2011-ci il 23 dekabr tarixli Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsinə əsasən vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında müvafiq icra hakimiyyəti orqanının aktı qüvvəyə mindikdən sonra müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən çağırışçılar yaşayış yeri və ya olduğu yer üzrə hərbi qeydiyyatda olduğu, hərbi qeydiyyatda olmayan çağırışçılar isə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına gəlməlidirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə yeni redaksiyada təsdiq edilmiş 2 nömrəli əlavənin - "Elektron xidmət növlərinin Siyahısı"nın 35.4-cü bəndinə əsasən çağırışçılara müddətli həqiqi hərbi xidmətlərini hansı hərbi hissədə keçmələri barədə məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən həyata keçirilir.

Hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma (CM-in 321-ci maddəsi) haqqında cinayət işlərinə baxarkən məhkəmələr nəzərə almalıdırlar ki, bu cinayətlərin tərkibi o zaman yaranır ki, həmin cinayətlərin subyektləri müddətli həqiqi hərbi xidmətlərini hansı hərbi hissədə keçmələri barədə məlumatı internet və ya qısa mesaj (SMS) vasitəsilə almalarına və yaxud başqa üsullarla əvvəlcədən Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri tərəfindən xəbərdarlıq edilmələrinə baxmayaraq, üzrlü səbəblər olmadan göstərilmiş müddətdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməməklə çağırışdan boyun qaçırmış olsunlar.”.

[3] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə yeni məzmunda 2-1-ci bənd əlavə edilmişdir.

[4] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə yeni məzmunda 2-2-ci bənd əlavə edilmişdir.

[5] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə yeni məzmunda 2-3-cü bənd əlavə edilmişdir.

[6] 20 fevral 2023-cü il tarixli 8 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 3-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

“**3.** CM-in 321-ci maddəsində nəzərdə tutulmuş növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin subyekti 18 yaşına çatmış və hərbi xidmətə çağırılanadək çağırışçıların hərbi uçotunda duran və yaxud durmalı olan kişi cinsindən olan Azərbaycan Respublikasının vətəndaşları, səfərbərlik üzrə çağırışdan boyun qaçırma cinayətinin subyekti isə həm çağırışçılar, həm də hərbi vəzifəlilər, yəni Azərbaycan Respublikası Silahlı Qüvvələrində ehtiyatda olan vətəndaşlar ola bilərlər.

Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın Əsasları haqqında” 1992-ci il 10 iyun tarixli Azərbaycan Respublikası Qanununun 8-ci və 24-cü maddələrinin mənasına görə həqiqi hərbi xidmətə çağırışdan və səfərbərlik üzrə çağırışdan boyun qaçırmaya məsuliyyət, yalnız Azərbaycan Respublikası Prezidentinin həqiqi hərbi xidmətə çağırış, yaxud qismən və ya ümumi səfərbərlik haqqında fərmanı elan edildikdən sonra, əgər fərmanın özündə onun qüvvəyə minməsinin başqa qaydası nəzərdə tutulmamışsa yarana bilər.

Çağırış məntəqəsində və yaxud komissiyada qeydiyyatdan keçmək üçün vətəndaşların müəyyən olunmuş müddətdə üzrlü səbəblər olmadan hərbi komissarlığa gəlməmələri həqiqi hərbi xidmətə növbəti çağırışdan boyun qaçırma kimi qiymətləndirilə bilməz. Belə ki, bu şəxslər çağırış sahəsində qeydiyyata alınanadək çağırışçı hesab

olunmurlar və hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin subyekti deyillər.”.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 3-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

“**3.** Azərbaycan Respublikası CM-in 321-ci maddəsində nəzərdə tutulmuş növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin subyekti hərbi xidmətə çağırışın müəyyən edilmiş tələblərinə cavab verən müddətli hərbi xidmətə və ya zabitlərin həqiqi hərbi xidmətinə çağırılan və ya səfərbərlik üzrə çağırılan Azərbaycan Respublikası vətəndaşlarıdır. Müddətli hərbi xidmətə - Azərbaycan Respublikasının 18 yaşına çatmış sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan, çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş kişi cinsli vətəndaşları, zabitlərin həqiqi hərbi xidmətinə - müddətli həqiqi hərbi xidmət keçməmiş, yaşı 35-dən çox olmayan, sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş ehtiyatda olan zabitlər çağırılırlar.

Vətəndaşlığı olmayan şəxslər və xarici ölkə vətəndaşları Azərbaycan Respublikası CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti ola bilməzlər. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş, lakin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verilməmiş çağırışçılar ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar. Azərbaycan Respublikası vətəndaşının xaricdə yaşaması Azərbaycan Respublikası CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti olmasını istisna etmir.

Qeydiyyatdan keçmək üçün vətəndaşların müəyyən olunmuş müddətdə üzrlü səbəblər olmadan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməmələri hərbi xidmətdən boyun qaçırma kimi qiymətləndirilə bilməz. Belə ki, hərbi xidmətdən boyun qaçırmaya görə məsuliyyət yalnız Azərbaycan Respublikası Prezidentinin şəxslərin hərbi xidmətə çağırılması haqqında sərəncamında göstərilən müddətdə üzrlü səbəb olmadan müvafiq icra hakimiyyəti orqanına gəlmədiyi halda yaranır.

Azərbaycan Respublikası Prezidentinin şəxslərin hərbi xidmətə çağırılması haqqında sərəncamı ilə müəyyən edilmiş müddətdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməməyin üzrlü səbəbləri çağırışçının xəstəliyi (tibb müəssisəsinin xəstəlik barədə tibbi arayışı əsasında) və ya fövqəladə və ya digər qarşısı alına bilinməyən hallardır (bu zaman şəxsən gəlməməyin mümkün olmaması çağırışçının yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməlidir).”.

[7] 20 fevral 2023-cü il tarixli 8 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 4-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

“**4.** Səfərbərlik dedikdə, müharibə dövrü və ya hərbi vəziyyət elan olunduqda 18 yaşından son yaş həddinədək hərbi vəzifəlilərin və çağırışçıların, hərbi uçotda olmayan 18 yaşından 45 yaşınadək qadınların Silahlı Qüvvələrə hərbi xidmətə çağırılmaları başa düşülür.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasına hərbi basqın təhlükəsi olduqda və ya fövqəladə vəziyyət şəraitində Azərbaycan Respublikası Prezidentinin səfərbərlik elan etmədən lazımi sayda hərbi vəzifəliləri üç ayadək müddətə hərbi xidmətə çağırmaq hüququ var.”.

[8] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə yeni məzmunda 4-1-ci bənd əlavə edilmişdir.

[9] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə yeni məzmunda 4-2-ci bənd əlavə edilmişdir.

[10] 20 fevral 2023-cü il tarixli 8 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 5-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

“**5.** Həqiqi hərbi xidmətə növbəti çağırışdan və səfərbərlik üzrə çağırışdan boyun qaçırma cinayətləri təqsirli şəxsin ona verilən bildirişdə göstərilən tarixdə, üzrlü səbəblər olduqda isə çağırışın və ya səfərbərliyin aparıldığı müddət ərzində çağırış və ya səfərbərlik üzrə hərbi xidmətdən qəsdən boyun qaçırdığı vaxtdan bitmiş hesab edilir. Həmin müddətdən sonra boyun qaçıranın hərbi komissarlığa gəlməsi cinayətdən könüllü imtina kimi deyil, cəzanı yüngülləşdirən hal kimi nəzərə alına bilər.”.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 5-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

“**5.** Həqiqi hərbi xidmətə növbəti çağırışdan və səfərbərlik üzrə çağırışdan boyun qaçırma cinayəti hərbi xidmətə çağırılma haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı qüvvəyə mindikdən sonra şəxsin müvafiq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlmədiyi halda, qeyd olunan normativ xarakterli aktda göstərilən hərbi xidmətə çağırışın sonuncu günü bitmiş hesab edilir.

Həmin müddətdən sonra hərbi xidmət keçməkdən boyun qaçıranın Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməsi cinayətdən könüllü imtina etmə kimi deyil, cəzanı yüngülləşdirən hal kimi nəzərə alına bilər.”.

[11] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 6-cı bəndə “cinayətlərin” sözündən sonra “, eyni

məqsədlə saxta sənəd əldə etmə, hazırlama və ya saxta sənəddən istifadə etmə CM-in 321-ci maddəsi ilə CM-in 320-ci maddəsində nəzərdə tutulmuş cinayətlərin” sözləri əlavə edilmişdir.

[12] 20 fevral 2023-cü il tarixli 8 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 7-ci bəndin ikinci abzasının ikinci cümləsində “26 oktyabr 2001-ci il” sözləri “2001-ci il 26 oktyabr” sözləri ilə əvəz edilmiş və həmin bəndin üçüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

“Hərbi vəzifəlilər və qadınlar üçün isə xidmətin başlanğıcı hərbi komissarlığın verdiyi sərəncamda göstərilmiş xidmət yerinə yola düşdükləri gün hesab olunur.”.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 7-ci bəndin ikinci və üçüncü abzasları müvafiq olaraq dördüncü və beşinci abzaslar hesab edilmiş və yeni məzmunda ikinci və üçüncü abzaslar əlavə edilmişdir.

[13] 20 fevral 2023-cü il tarixli 8 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 8-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

“**8.** CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətlərə dair işlərə baxarkən məhkəmələr nəzərə almalıdırlar ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə o zaman cinayət hesab edilir ki, bu müddət 3 gündən artıq, lakin 10 gündən çox olmasın, yaxud 3 gündən az olsa da eyni əməllər altı ay ərzində təkrar edilmiş olsun. Təkrarlıq üçün əvvəlki özbaşına tərk etməyə görə təqsirkar şəxsə intizam tənbehi verilib-verilməməsinin əhəmiyyəti yoxdur.”.

[14] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 9-cu bəndin birinci abzasına “hərbi hissənin” sözlərindən sonra “(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin)” sözləri, “mövqeyini” sözündən sonra isə “(ərazisini)” sözü əlavə edilmişdir.

[15] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 9-cu bəndin ikinci abzasının birinci cümləsinə “Hərbi hissəni” sözlərindən sonra “(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini)” sözləri əlavə edilmiş və həmin cümlədən “bu,” sözü çıxarılmışdır.

[16] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 9-cu bəndin dördüncü abzasına "olan" sözündən sonra "hərbi hissəyə və ya" sözləri, "əsaslarla" və "müddətdə" sözlərindən sonra isə "hərbi" sözü əlavə edilmişdir.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 9-cu bəndin dördüncü abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"Cinayət məsuliyyətinə səbəb olan hərbi hissəyə və ya xidmət yerinə vaxtında gəlməmə ondan ibarətdir ki, hərbi qulluqçu qanuni əsaslarla hərbi hissənin mövqeyindən və ya xidmət yerindən getdikdən sonra üzrlü səbəblər olmadan müəyyən olunmuş müddətdə hərbi hissəyə və ya xidmət yerinə qayıtmamış olsun.".

[17] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 9-cu bəndin beşinci abzasından "o," sözü çıxarılmışdır.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 9-cu bəndin beşinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"Nəzərə almaq lazımdır ki, əgər gəlməmə üzrlü səbəblərdən baş vermişdirsə, ~~o,~~ cinayət məsuliyyətinə səbəb olmur (hərbi qulluqçunun xəstəliyi, hissəyə və ya xidmət yerinə vaxtında gəlməyə imkan verməyən təbii fəlakət və s. xarakterli hadisələr).".

[18] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 9-cu bəndə yeni məzmunda altıncı abzas əlavə edilmişdir.

[19] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 10-cu bəndin ikinci abzasına "yeri," və "məsələn," sözlərindən sonra "hərbi" sözü əlavə edilmişdir.

[20] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi

Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 11-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"**11.** Fərariliyə dair cinayət işlərinə baxılarkən məhkəmələr nəzərə almalıdırlar ki, fərarilik hərbi qulluqçunun üç aydan artıq müddətə hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsində və ya xidmət yerinə qayıtmamasında (gəlməməsində), yaxud müddətindən asılı olmayaraq, hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hissənin mövqeyini və ya xidmət yerini buraxıb getməkdə, eləcə də başqa hissəyə dəyişdirilərkən, təyinat alarkən, ezamiyyətdən, məzuniyyətdən və ya müalicə müəssisəsindən qayıdarkən eyni məqsədlə hissəyə və ya xidmət yerinə gəlməməkdə ifadə olunur.".

[21] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 12-ci bəndin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"Fərarilik cinayəti o zaman başa çatmış hesab olunur ki, hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırma məqsədilə hərbi hissənin mövqeyini və ya xidmət yerini özbaşına buraxıb getmiş olsun, yaxud 3 aydan artıq müddətdə xidmət yerinə qayıtmasın.".

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 12-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"**12.** Fərarilik cinayəti hərbi qulluqçu müddətindən asılı olmayaraq, hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi hissəni və ya xidmət yerini özbaşına buraxıb getdiyi və yaxud hərbi hissəyə və ya xidmət yerinə qayıtmadığı vaxtdan başa çatmış hesab olunur.

Nəzərə almaq lazımdır ki, CM-in 321, 333 və 334-cü maddələrində nəzərdə tutulmuş cinayətlər uzanan cinayətlərdir.".

[22] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə yeni məzmunda 12-1-ci bənd əlavə edilmişdir.

[23] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 13-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"**13.** Əgər hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hissəni özbaşına buraxıb getmişsə, lakin əvvəlki niyyətindən imtina edərək hissəyə qayıtmış və ya özünü hakimiyyət orqanına təqdim etmişsə, belə halda təqsirkarın hərəkətində bitmiş fərarilik cinayətinin tərkibi yaranır. Onun hissəyə gəlməsi və ya özünü hakimiyyət orqanına təqdim etməsi isə bu halda könüllü imtina kimi deyil, təqsirini boynuna almaqla könüllü gəlmə kimi qiymətləndirilməlidir.".

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 13-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"**13.** Əgər hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi hissəni (xidmət yerini) özbaşına buraxıb getmişsə, lakin əvvəlki niyyətindən imtina edərək hərbi hissəyə (xidmət yerinə) qayıtmış və ya özünü hakimiyyət orqanına təqdim etmişsə, belə hallarda təqsirkarın hərəkətində bitmiş fərarilik cinayətinin tərkibi yaranır. Onun hərbi hissəyə (xidmət yerinə) gəlməsi və ya özünü hakimiyyət orqanına təqdim etməsi isə cinayəti törətməkdən könüllü imtina kimi deyil, təqsirini boynuna almaqla könüllü gəlmə kimi qiymətləndirilməlidir.".

[24] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 14-cü bəndin ikinci abzasına "yaxud bu" sözlərindən sonra "hərbi" sözü, "hissələrdən" sözündən sonra isə "və ya bölmələrdən" sözləri əlavə edilmişdir.

[25] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 16-cı bəndin ikinci abzasında "qauptvaxtda" sözü "hauptvaxtda" sözü ilə əvəz edilmişdir.

[26] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 17-ci bəndin birinci abzasında "329-cu" sözləri "330-cu" sözləri ilə əvəz edilmişdir.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 17-ci bəndin birinci abzasında "Məhkəmələrə izah olunsun ki, hərbi hissəni (xidmət yerini)" sözləri "Hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini" sözləri ilə əvəz edilmişdir.

[27] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 17-ci bəndin ikinci abzasında "işlərinə" sözü "işinə" sözü ilə, "onun hərbi hissənin mövqeyini" sözləri "hərbi hissənin (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin) mövqeyini (ərazisini)" sözləri ilə "bu tərk etmənin" sözləri isə "hərbi xidmətdən yayınma" sözləri ilə əvəz edilmişdir.

[28] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 18-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"**18.** Hərbi hissəni (xidmət yerini) özbaşına tərk edən və ya fərarilik edən hərbi qulluqçuların şəxsi istifadəsi üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaları nəticəsində həmin əmlakı itirmələri müvafiq olaraq CM-in 333 və ya 334, həmçinin 347-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin tərkibini yaradır.".

[29] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 19-cu bənddə "qulluq" sözü "xidmət" sözü ilə əvəz edilmiş və həmin bəndə "silahı," sözündən sonra "onun komplekt hissələrini," sözləri, "maddələri" sözündən sonra isə "və qurğuları" sözləri əlavə edilmişdir.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 19-cu bənddə "(xidmət yerini)" sözləri "(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini" sözləri ilə əvəz edilmişdir.

[30] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 20-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"**20.** Hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə, yaxud belə məqsədi olmadan hissəni tərk edərkən, xidməti istifadə üçün ona verilmiş nəqliyyat vasitəsini, texniki təchizat əşyalarını və ya digər hərbi əmlakı öz mülkiyyətinə və ya başqa şəxsin mülkiyyətinə keçirmək məqsədilə özü ilə apararsa, onun hərəkəti hərbi hissəni (qulluq yerini) tərk etmə və ya fərarilik, eləcə də dövlət əmlakının mənimsənilməsi kimi tövsif olunmalıdır.".

23 yanvar 2026-cı il tarixli 1 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 20-ci bənddə hər iki halda "(xidmət yerini)" sözləri "(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini" sözləri ilə əvəz edilmişdir.

[31] 20 fevral 2023-cü il tarixli 8 nömrəli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali

Məhkəməsi Plenumunun Qərarı ilə 22-ci bəndə “nəticələrə” sözündən sonra “və ya CM-in 339 və 340-cı maddələrində göstərilən əməllər üzrə dövlətin təhlükəsizlik mənafelərinə real təhlükənin yaranmasına” sözləri əlavə edilmişdir.

23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 22-ci bənddə “(xidmət yerini)” sözləri “(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini” sözləri ilə əvəz edilmiş və həmin bəndə ikinci halda “CM-in” sözündən sonra “338,” rəqəmi əlavə edilmişdir.

[32] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 23-cü bəndin birinci cümləsinə “hərbi hissəni” sözlərindən sonra “(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini)” sözləri əlavə edilmişdir.

[33] 20 fevral 2023-cü il tarixli 8 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 24-cü bəndin ikinci abzası çıxarılmışdır.

Həmin abzasda deyilirdi:

“Apellyasiya və kassasiya instansiyası məhkəmələri işlərin birinci instansiya məhkəmələrində baxılma keyfiyyətinə tələbkarlığı artırmalı, yol verilmiş nöqsanları vaxtında müəyyən etməli və aradan qaldırmalıdırlar.”.

[34] 23 yanvar 2026-cı il tarixli 1 nömrəli “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında 2001-ci il 1 noyabr tarixli 1/2001 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə yeni məzmunda 24-1-ci bənd əlavə edilmişdir.